**“Elektroenergetika haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci və 20-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

“Elektroenergetika haqqında” Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, 6, maddə 363; 2001, 11, maddə 696; 2002, 12, maddə 709; 2003, 1, maddə 12; 2006, 8, maddə 657; 2008, 5, maddə 348; 2009, 10, maddə 768; 2010, 5, maddə 374; 2011, 4, maddə 261, 12, maddə 1090; 2016, 12, maddə 1990) aşağıdakı məzmunda 4-1-ci maddə əlavə edilsin:

**“Maddə 4-1. Müvafiq icra hakimiyyəti orqanının yaratdığı quruma ödənilən haqq**

Enerji istehsalçıları və enerji təchizatı müəssisələri tərəfindən müvafiq icra hakimiyyəti orqanının yaratdığı quruma haqq ödənilir. Haqqın məbləği və ödənilmə qaydası müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırmaqla müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.”.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 13 fevral 2018-ci il
993-VQD